QANUN № 06 (380), 2026, s. 150-158

Mehrəliyeva Humay Cahid qızı,
Milli Aviasiya Akademiyasının Hüquq kafedrasının doktorantı
E-mail: humay.mehraliyeva@gmail.com

UOT 343.212
DOI: https://doi.org/10.30546/2218-9130.060.2026.0169

TİBBİ XARAKTERLİ MƏCBURİ TƏDBİRLƏRİN TƏTBİQİ ƏSASLARININ CİNAYƏT-HÜQUQİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *tibbi xarakterli məcburi tədbirlər, ambulator müşahidə, cinayət-hüquqi təsir tədbirləri, proporsionallıq prinsipi.*

Ключевые слова: *меры медицинского характера, амбулаторное наблюдение, меры уголовно-правового воздействия, принцип пропорциональности.*

Keywords: *compulsory medical measures, outpatient supervision, criminal law measures, principle of proportionality.*

Giriş

Müasir cinayət hüququ yalnız cinayət törətmiş şəxslərin cəzalandırılmasına deyil, həm də cinayət əməllərinin qarşısının alınmasına, habelə ümumilikdə insan hüquqlarının müdafiəsinə və ictimai təhlükəsizliyin təmin edilməsinə xidmət edir. Bu baxımdan, psixi pozuntulardan əziyyət çəkən şəxslərin törətdikləri ictimai təhlükəli əməllərə münasibətdə hüquqi tənzimləmə xüsusi əhəmiyyət kəsb edir. Odur ki, belə şəxslərin davranışlarının qiymətləndirilməsi zamanı onların psixi vəziyyəti nəzərə alınmalı, cəza tədbirləri ilə yanaşı müalicə yönümlü hüquqi mexanizmlər də tətbiq edilməlidir. Bu səbəbdən tibbi xarakterli məcburi tədbirlərin hüquqi mahiyyətinin və onların tətbiq xüsusiyyətlərinin araşdırılması aktual elmi və praktik əhəmiyyət daşıyır.

Azərbaycan Respublikasının cinayət qanunvericiliyində qeyd edilən məqsədə xidmət edən institutlardan biri də tibbi xarakterli məcburi tədbirlərdir. Həmin tədbirlər psixi xəstəlik və ya digər psixi pozuntu səbəbindən öz hərəkətlərinin faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etmək və ya onları idarə etmək qabiliyyətinə malik olmayan şəxslərə, habelə cinayət törətmiş, alkoqolizmdən və ya narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərə münasibətdə tətbiq edilir. Bu tədbirlərin əsas məqsədi şəxsin müalicəsinin təmin olunması, onun psixi vəziyyətinin yaxşılaşdırılması və yeni ictimai-təhlükəli əməllərin törədilməsinin qarşısının alınmasından ibarətdir.

Bununla belə, tibbi xarakterli məcburi tədbirlərin tətbiqi təcrübəsində bir sıra hüquqi və təşkilati problemlər mövcuddur. Xüsusilə məhkəmə-psixiatrik ekspertizaların nəticələrinin qiymətləndirilməsi, bu tədbirlərin tətbiq müddətinin müəyyənləşdirilməsi, şəxsin hüquqlarının müdafiəsi və müalicə müəssisələrində saxlanma şərtləri ilə bağlı məsələlər elmi müzakirələrin predmetinə çevrilmişdir.

Əsas müddəalar

Azərbaycan Respublikası Konstitusiyasının 41-ci maddəsinə əsasən, hər kəsin sağlamlığını

qorumaq və tibbi yardım almaq hüququ vardır [1, s. 16]. Tarixi inkişafın ilkin mərhələlərində psixi xəstəlikdən əziyyət çəkən şəxslər adi hüquq pozuntusu törətmiş şəxslər kimi qəbul edilir və onların psixi vəziyyəti hüquqi məsuliyyətin müəyyən edilməsində nəzərə alınmırdı. Sonrakı dövrlərdə tibb elminin inkişafı nəticəsində insan davranışına təsir göstərən psixi amillərin mövcudluğu qəbul edilmiş və cinayət hüququnda "anlaqsızlıq" institutu formalaşmağa başlamışdır.

XIX əsrin sonu və XX əsrin əvvəllərində Avropa dövlətlərinin cinayət qanunvericiliyində psixi xəstələrin cəzalandırılması əvəzinə onların müalicə müəssisələrinə yerləşdirilməsi ideyası geniş yayılmışdır [14, s. 4]. Bu yanaşma cəzanın məqsədləri ilə müalicənin məqsədləri arasında fərqin müəyyən edilməsinə səbəb olmuşdur. Beləliklə, psixi vəziyyətinə görə cinayət məsuliyyətinə cəlb edilə bilməyən şəxslərə münasibətdə xüsusi hüquqi tədbirlərin tətbiqi zərurəti yaranmışdır.

Sovet dövründə tibbi xarakterli məcburi tədbirlər cinayət hüququnun ayrıca institutu kimi inkişaf etmişdir. Həmin dövrdə qəbul edilmiş cinayət qanunlarında anlaqsız vəziyyətdə ictimai təhlükəli əməl törətmiş şəxslərə münasibətdə məcburi müalicə tədbirlərinin tətbiqi nəzərdə tutulurdu. Bununla belə, qeyd edilən tədbirlərin həyata keçirilməsi zamanı dövlət maraqlarına üstünlük verilməsi insan hüquqlarının müdafiəsi baxımından müəyyən problemlər yaradırdı.

Azərbaycan Respublikası da müstəqilliyini bərpa etdikdən sonra insan hüquq və azadlıqlarının təmin edilməsinə yönəlmiş yeni hüquqi təminat sistemi formalaşdırmışdır. 1999-cu ildə qəbul edilmiş Azərbaycan Respublikası Cinayət Məcəlləsində tibbi xarakterli məcburi tədbirlərə ayrıca bölmə və fəsil həsr edilmiş, onların tətbiqinin əsasları, məqsədləri və növləri müəyyən edilmişdir [2, s. 294]. Bu yanaşma beynəlxalq standartlara uyğun olaraq həm ictimai təhlükəsizliyin qorunmasını, həm də psixi pozuntudan əziyyət çəkən şəxslərin hüquqlarının müdafiəsini təmin etməyə yönəlmişdir.

Vurğulamaq lazımdır ki, tibbi xarakterli məcburi tədbirlər cinayət-hüquqi xarakterli tədbirlərin bir növü kimi çıxış edir. Belə ki, cinayət-hüquqi xarakterli tədbirlər dövlət tərəfindən cinayət qanunvericiliyi əsasında tətbiq edilən hüquqi təsir vasitələridir. Bu tədbirlər yalnız cəzalardan ibarət deyildir. Müasir cinayət hüququnda cəza ilə yanaşı tibbi xarakterli məcburi tədbirlər və digər hüquqi təsir vasitələri (tərbiyə vasitələri və s.) də mövcuddur.

Cinayət Məcəlləsinin 15-ci fəsli tibbi xarakterli məcburi tədbirlərin tətbiqinin hüquqi əsaslarını, məqsədini, növlərini və icra qaydalarını kompleks şəkildə tənzimləyir. Bu tədbirlər psixi pozuntusu olan, cinayət törətmiş, habelə alkoqolizm və narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərə münasibətdə tətbiq olunur və əsas şərt kimi həmin şəxslərin özünə və ya başqalarına təhlükə yaratması çıxış edir. Fəsildə tibbi xarakterli məcburi tədbirlərin cəza deyil, müalicə və profilaktik xarakter daşıdığı vurğulanır. Onların əsas məqsədi şəxsin psixi və ya fiziki vəziyyətinin yaxşılaşdırılması, reabilitasiyası və yeni cinayətlərin qarşısının alınmasıdır. Bu tədbirlər məcburi ambulator müşahidə və psixiatrik müalicədən başlayaraq, ümumi və ixtisaslaşdırılmış psixiatriya stasionarlarında, o cümlədən intensiv müşahidə altında müalicəyə qədər müxtəlif formalarda tətbiq oluna bilər [4].

Qeyd etmək lazımdır ki, tibbi xarakterli məcburi tədbirlərin əsas xüsusiyyəti onların cəza xarakteri daşımamasıdır. Cəza şəxsin törətdiyi cinayətə görə mənfi hüquqi nəticə olmaqla onun islah edilməsinə və sosial ədalətin bərpasına xidmət edir. Tibbi xarakterli məcburi tədbirlər isə ilk növbədə müalicə və profilaktik məqsədlər daşıyır. Bu tədbirlərin tətbiqində əsas meyar şəxsin təqsiri deyil, onun psixi vəziyyəti və cəmiyyət üçün yaratdığı real ictimai təhlükədir.

Bununla belə, tibbi xarakterli məcburi tədbirlər dövlət məcburetmə xarakterinə malikdir. Onlar yalnız məhkəmənin qərarı əsasında tətbiq olunur və şəxsin razılığından asılı deyildir. Bu səbəbdən həmin tədbirlər cinayət-hüquqi xarakterli tədbirlər sisteminə daxil edilir. Eyni zamanda onların tətbiqi zamanı qanunçuluq, humanizm və insan hüquqlarına hörmət prinsiplərinə riayət olunmalıdır.

Hüquq ədəbiyyatında tibbi xarakterli məcburi tədbirlərin hüquqi təbiəti ilə bağlı müxtəlif mövqelər mövcuddur. Bir qrup müəllif onları müstəqil cinayət-hüquqi tədbir hesab edir, digər müəlliflər isə bu tədbirlərin tibbi və hüquqi elementlərin vəhdətindən ibarət kompleks institut olduğunu qeyd edirlər.

Cinayət Məcəlləsinə əsasən tibbi xarakterli məcburi tədbirlər məhkəmə tərəfindən qanunla müəyyən edilmiş şəxslərə münasibətdə tətbiq olunan xüsusi xarakterli tədbirlərdir. Bu tədbirlər əsasən anlaqsız vəziyyətdə ictimai təhlükəli əməl törətmiş şəxslərə, cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş şəxslərə və bəzi hallarda psixi pozuntusu olan məhdud anlaqlı şəxslərə və s. tətbiq edilə bilər [11, s. 597].

Tibbi xarakterli məcburi tədbirlərin anlayışını müəyyən edərkən onların bir neçə əsas əlamətini qeyd etmək mümkündür:

- həmin tədbirlər yalnız məhkəmə qərarı ilə tətbiq olunur;
- onlar dövlət məcburetmə xarakteri daşıyır;
- tədbirlərin əsasını şəxsin psixi vəziyyəti və ya xəstəliyi təşkil edir;
- onların başlıca məqsədi müalicə və profilaktik təsirin həyata keçirilməsidir [8, s. 236].

Bu tədbirlərin məqsədləri Cinayət Məcəlləsində birbaşa müəyyən edilmişdir. Həmin məqsədlərə şəxsin müalicəsinin təmin olunması, onun psixi vəziyyətinin yaxşılaşdırılması və yeni ictimai-təhlükəli əməllərin törədilməsinin qarşısının alınması daxildir. Göründüyü kimi, qanunverici cəzalandırma məqsədini deyil, insanın sağlamlığının bərpasını və cəmiyyətin müdafiəsini ön plana çıxarmışdır.

Tibbi xarakterli məcburi tədbirlərin tətbiqi üçün qanunla müəyyən edilmiş hüquqi əsasların mövcud olması olduqca vacibdir. Bu tədbirlər hər hansı psixi pozuntusu olan şəxsə deyil, yalnız qanunda nəzərdə tutulmuş hallarda tətbiq edilə bilər. Cinayət hüququnda əsas məqsəd həm cəmiyyətin təhlükəsizliyini təmin etmək, həm də psixi vəziyyətinə görə xüsusi yanaşmaya ehtiyacı olan şəxslərin müalicəsini təşkil etməkdir [12, s. 749].

Cinayət Məcəlləsinə əsasən tibbi xarakterli məcburi tədbirlər əsasən anlaqsız vəziyyətdə ictimai-təhlükəli əməl törətmiş şəxslərə tətbiq olunur. Belə şəxslər öz hərəkətlərinin mahiyyətini dərk edə və ya onları idarə edə bilmədiklərinə görə cinayət məsuliyyətinə cəlb edilmirlər. Çünki bu şəxslərə münasibətdə cəzanın tətbiq edilməsilə izlənilən məqsədə nail olmaq mümkün deyildir [9, s. 364].

Bununla yanaşı, cinayət törətdikdən sonra psixi xəstəliyə tutulmuş şəxslərə də bu tədbirlər tətbiq edilə bilər. Çünki belə hallarda şəxsə cəzanın tətbiqi və ya onun icrası mümkün olmur.

Belə tədbirlərin tətbiqi üçün məhkəmə şəxsin psixi vəziyyətini müəyyən etməlidir. Bu məqsədlə məhkəmə-psixiatrik ekspertiza təyin edilir. Ekspertiza rəyi məhkəmə üçün mühüm sübut hesab olunsa da, yekun qərarı məhkəmə qəbul edir. Məhkəmə qərar qəbul edərkən həm şəxsin mövcud psixi vəziyyətini, həm də gələcəkdə ictimai təhlükə törətmək ehtimalını qiymətləndirir.

Tibbi xarakterli məcburi tədbirlərin tətbiqində əsas şərtlərdən biri şəxsin ictimai-təhlükəliliyidir. Burada söhbət yalnız törədilmiş əməlin təhlükəliliyindən deyil, həm də şəxsin gələcəkdə yeni ictimai-təhlükəli hərəkətlər törətmək ehtimalından gedir.

Psixi pozuntudan əziyyət çəkən hər bir şəxs ictimai-təhlükəli hesab edilmir. Şəxsin davranışı, xəstəliyin xarakteri və ətrafdakılar üçün yarada biləcəyi risk ayrıca qiymətləndirilməlidir. Əgər şəxs özünə və ya başqalarına zərər vurmaq təhlükəsi yaratmırsa, ona məcburi tədbirin tətbiqi zəruri olmaya bilər.

İctimai-təhlükəliliyin müəyyən edilməsində məhkəmə-psixiatrik ekspertizanın nəticələri mühüm rol oynayır. Ekspertlər şəxsin psixi vəziyyətini araşdıraraq onun davranışının nə dərəcədə təhlükəli olduğunu qiymətləndirirlər. Bununla yanaşı, məhkəmə tərəfindən şəxsin özü və ya ətrafdakılar üçün təhlükə yaradıb-yaratmadığı da nəzərə alınmalıdır [3].

Qeyd etmək lazımdır ki, şəxsin şəxsiyyətinin ictimai-təhlükəlilik dərəcəsi dəyişkən xarakter daşıyır. Belə ki, şəxsin müalicə alması nəticəsində onun psixi vəziyyəti yaxşılaşa və təhlükəlilik səviyyəsi azala bilər. Buna görə də tibbi xarakterli məcburi tədbirlərin tətbiqi zamanı şəxsin vəziyyəti mütəmadi olaraq yoxlanılmalıdır.

Müasir cinayət-hüquq nəzəriyyəsində qəbul edilən əsas fikir ondan ibarətdir ki, tibbi xarakterli məcburi tədbirlərin tətbiqində əsas məqsəd psixi xəstəliyi olan şəxsləri cəmiyyətdən təcrid etmək deyil, onların müalicəsini təmin etmək və eyni zamanda ictimai təhlükəsizliyi qorumaqdır. Bu səbəbdən ictimai-təhlükəlilik meyarı hər bir iş üzrə fərdi qaydada qiymətləndirilməlidir.

Cinayət Məcəlləsinin 95-ci maddəsində tibbi xarakterli məcburi tədbirlərin bir neçə növü nəzərdə tutulmuşdur [6, s. 110]. Bu tədbirlər şəxsin psixi vəziyyətindən və təhlükəlilik dərəcəsindən asılı olaraq seçilir.

İlk növ ambulator psixiatrik müşahidə və müalicədir. Bu halda şəxs xəstəxanaya yerləşdirilmir və yaşayış yerində həkim nəzarəti altında müalicə alır. Bu tədbir adətən yüksək təhlükəlilik yaratmayan şəxslərə tətbiq edilir.

Digər növ ümumi tipli psixiatriya stasionarında məcburi müalicədir. Bu tədbir daha ciddi nəzarət tələb edən şəxslər üçün nəzərdə tutulur. Belə hallarda şəxs müəyyən müddət ərzində tibb müəssisəsində saxlanılır və müalicə olunur.

Qanunvericilikdə həmçinin ixtisaslaşdırılmış psixiatriya stasionarında məcburi müalicə və intensiv müşahidəli ixtisaslaşdırılmış psixiatriya stasionarında məcburi müalicə də nəzərdə tutulmuşdur. Bu tədbirlər daha yüksək ictimai təhlükəlilik yaradan şəxslərə tətbiq edilir. Belə müəssisələrdə nəzarət səviyyəsi daha ciddi olur və təhlükəsizlik tədbirlərinə xüsusi diqqət yetirilir.

Azərbaycan Respublikasının "Psixiatriya yardımı haqqında" Qanununa əsasən psixi pozuntusu olan şəxslərə göstərilən ambulator psixiatrik yardım məsləhət-müalicə yardımı və dispanser müşahidəsi formalarında həyata keçirilir [5]. Bunlardan yalnız dispanser müşahidəsi tibbi xarakterli məcburi tədbir kimi tətbiq edilə bilər. Bu tədbir çərçivəsində şəxs həkim-psixiatr tərəfindən müntəzəm müşahidə olunur, ona zəruri müalicə və sosial yardım göstərilir. Şəxsin müalicədən yayınması hallarında isə qanunvericilik onun dispanser müşahidəsinə cəlb olunmasını təmin edən mexanizmlər nəzərdə tutur. Beləliklə, ambulator məcburi müşahidə daha az məhdudlaşdırıcı xarakter daşıyaraq şəxsin cəmiyyətdən təcrid edilmədən müalicəsinə imkan yaradır.

Məhkəmə tibbi xarakterli tədbirin növünü seçərkən şəxsin psixi xəstəliyinin xarakterini, törətdiyi əməli və cəmiyyət üçün yaratdığı təhlükəni nəzərə alır. Tədbirin seçilməsində əsas məqsəd şəxsin vəziyyətinə uyğun olan ən səmərəli müalicə formasını müəyyən etməkdir.

Tibbi xarakterli məcburi tədbirlər qeyri-müəyyən müddətə tətbiq edilmir. Şəxsin psixi vəziyyəti dəyişə biləcəyi üçün qanunvericilik həmin tədbirlərin mütəmadi şəkildə yenidən qiymətləndirilməsini nəzərdə tutur.

Əgər aparılan müalicə nəticəsində şəxsin vəziyyətində yaxşılaşma müşahidə olunmursa və

ictimai təhlükəlilik qalırsa, məhkəmə tədbirin müddətini uzada bilər. Bu zaman yeni məhkəmə-psixiatrik ekspertiza keçirilir və müvafiq tibbi rəy təqdim edilir.

Şəxsin vəziyyəti qismən yaxşılaşdıqda tədbirin növü dəyişdirilə bilər. Məsələn, intensiv müşahidəli stasionarda müalicə alan şəxs sonradan ümumi tipli stasionara və ya ambulator müşahidəyə keçirilə bilər.

Əgər şəxsin psixi vəziyyəti əhəmiyyətli dərəcədə yaxşılaşmış və onun ictimai-təhlükəliliyi aradan qalxmışdırsa, məhkəmə tibbi xarakterli məcburi tədbiri ləğv edə bilər. Bu halda şəxs məcburi müalicədən azad olunur.

Cinayət Məcəlləsinin 98-ci maddəsinə əsasən, barəsində tibbi xarakterli məcburi tədbir tətbiq edilən şəxs azı altı ayda bir dəfə həkim-psixiatr komissiyasının müayinəsindən keçirilməlidir [2, s. 306]. Lakin hüquq ədəbiyyatında qeyd edilir ki, praktikada bu nəzarət mexanizmləri həmişə effektiv işləmir və bəzi hallarda şəxslərin psixiatriya müəssisələrində qalma müddəti faktiki olaraq uzanır. Bu isə tədbirlərin davam etdirilməsi və ya ləğvi ilə bağlı qərarların obyektivliyinə təsir göstərə və şəxsin hüquqlarının məhdudlaşdırılmasına səbəb ola bilər**.**

Tədbirin uzadılması, dəyişdirilməsi və ya ləğv edilməsi zamanı insan hüquqlarının qorunması xüsusi əhəmiyyət daşıyır. Çünki məcburi müalicə şəxsin azadlığına müəyyən məhdudiyyətlər yaradır. Buna görə də hər bir qərar tibbi və hüquqi əsaslara söykənməli, məhkəmə tərəfindən hərtərəfli araşdırıldıqdan sonra qəbul edilməlidir.

Bunu da qeyd etmək lazımdır ki, tibbi xarakterli məcburi tədbirlərin ləğv edilməsinin özü də hüquqi nəticələrə səbəb olur. Belə ki, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 467-11-ci maddəsinə əsasən şəxsin tam sağalması nəticəsində qəbul edilmiş narkomaniya xəstəliyi ilə əlaqədar tibbi xarakterli məcburi tədbirlərin ləğv edilməsi haqqında qərar həmin tədbirləri tətbiq etmiş məhkəməyə daxil olduqda, məhkəmə iş üzrə icraatı təzələməklə, şəxsin cinayət məsuliyyətindən azad edilməsi və icraata xitam verilməsi haqqında qərar qəbul edir [7, s. 461].

Tibbi xarakterli məcburi tədbirlərin tətbiqi yalnız milli qanunvericiliyin deyil, həm də beynəlxalq hüququn diqqət mərkəzində olan məsələlərdən biridir. Müasir dövrdə psixi pozuntulardan əziyyət çəkən şəxslərin hüquqlarının qorunması insan hüquqlarının ayrılmaz hissəsi kimi qəbul edilir. Bu səbəbdən beynəlxalq təşkilatlar tərəfindən bu sahədə bir sıra hüquqi standartlar müəyyən edilmişdir.

Tibbi xarakterli məcburi tədbirlərin tətbiqində ən mühüm beynəlxalq sənədlərdən biri 1950-ci il noyabrın 4-də Roma şəhərində imzalanmış "İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyadır. Konvensiyaya əsasən psixi xəstə şəxsin azadlıq hüququ müəyyən hallarda məhdudlaşdırıla bilər. Lakin belə məhdudlaşdırma qanuna uyğun olmalı, tibbi əsaslara söykənməli və məhkəmə nəzarəti altında həyata keçirilməlidir.

Avropa Şurasının normativ-hüquqi bazası psixi pozuntusu olan şəxslərə qarşı tibbi xarakterli məcburi tədbirlərin tətbiqində əsas istiqamətverici rol oynayır. Bu sahədə *R(83)2 Tövsiyəsi* məcburi müalicənin yalnız qanuni əsas, etibarlı tibbi rəy və məhkəmə nəzarəti ilə həyata keçirilməsini, eləcə də ən az məhdudlaşdırıcı tədbirin seçilməsi və qərarların mütəmadi yenidən baxılmasını tələb edir. Avropa İnsan Hüquqları Məhkəməsinin formalaşdırdığı hüquqi mövqeyə görə psixi xəstəliklə əlaqədar azadlıqdan məhrumetmə yalnız tibbi ekspertiza ilə təsdiqlənmiş xəstəlik mövcud olduqda, belə tədbir zəruri hesab edildikdə və onun davamlılığı mütəmadi nəzarət altında saxlanıldıqda qanuni sayıla bilər. Məhkəmə *Winterwerp v. Netherlands, Stanev v. Bulgaria* və digər işləri üzrə bu sahədə əsas beynəlxalq standartları formalaşdırmışdır [10, s. 87].

Müxtəlif dövlətlərin cinayət qanunvericiliyində tibbi xarakterli məcburi tədbirlər oxşar məqsədlərə xidmət etsə də, onların tətbiq mexanizmlərində müəyyən fərqlər mövcuddur.

Almaniya Federativ Respublikasının Cinayət Məcəlləsində psixi xəstəlik səbəbindən ictimai təhlükə yaradan şəxslərə münasibətdə xüsusi təhlükəsizlik və islah tədbirləri tətbiq edilir. Məhkəmə şəxsin təhlükəlilik səviyyəsini nəzərə alaraq onu xüsusi tibb müəssisəsinə yerləşdirə bilər. Almaniya təcrübəsində mütəmadi məhkəmə nəzarətinə və ekspertiza yoxlamalarına xüsusi əhəmiyyət verilir [15].

Fransa Respublikasının Cəza Məcəlləsində də anlaqsız vəziyyətdə ictimai təhlükəli əməl törətmiş şəxslərə cəza tətbiq edilmir. Bunun əvəzinə həmin şəxslərin müalicəsi və cəmiyyət üçün yaratdıqları riskin azaldılması istiqamətində tədbirlər görülür. Burada da məhkəmə və tibbi ekspertlərin əməkdaşlığı mühüm rol oynayır [17].

Türkiyə Cümhuriyyətinin Cəza Qanununda psixi xəstəlik səbəbindən cinayət məsuliyyətinə cəlb olunmayan şəxslər üçün təhlükəsizlik tədbirləri nəzərdə tutulmuşdur. Bu şəxslər məhkəmənin qərarı ilə yüksək təhlükəsizlik tədbirləri olan səhiyyə müəssisələrinə yerləşdirilə bilərlər. Müalicənin davam etdirilməsi və ya dayandırılması barədə qərarlar isə mütəmadi tibbi rəylər əsasında qəbul edilir [13].

Polşa Respublikasının Cinayət Məcəlləsində də oxşar yanaşma mövcuddur. Psixi vəziyyətinə görə təhlükəli hesab edilən şəxslərin müalicəsi ilə yanaşı, onların cəmiyyətə reinteqrasiyasına da diqqət yetirilir [16]. Müşahidələr göstərir ki, son illərdə bir çox Avropa ölkələrində məcburi hospitalizasiyanın minimum zəruri həddə saxlanılması və ambulator müalicənin genişləndirilməsi istiqamətində islahatlar aparılır.

Xarici ölkələrin cinayət qanunvericiliyinin müsbət təcrübəsinin təhlili göstərir ki, inkişaf etmiş hüquq sistemlərində əsas məqsəd yalnız təhlükəsizliyin təmin edilməsi deyil, həm də şəxsin hüquqlarının qorunması və onun normal həyata qayıtmasına şərait yaradılmasıdır.

Milli cinayət hüququnda tibbi xarakterli məcburi tədbirlərin tətbiqi ilə bağlı qanunvericilik bazası ümumilikdə formalaşmışdır. Bununla belə, hüquq tətbiqi təcrübəsində müəyyən problemlər hələ də mövcuddur. Bu problemlərin aradan qaldırılması həm insan hüquqlarının daha effektiv müdafiəsinə, həm də məhkəmə fəaliyyətinin təkmilləşdirilməsinə xidmət edə bilər.

Hüquq ədəbiyyatında tibbi xarakterli məcburi tədbirlərin tətbiqi zamanı bir sıra praktiki problemlərin mövcudluğu qeyd edilir. Bunlara məhkəmə-psixiatriya ekspertizalarının obyektivliyi ilə bağlı çətinliklər, ixtisaslaşdırılmış tibb müəssisələrinin və resursların çatışmazlığı, habelə məcburi müalicənin davam etdirilməsinə dair qərarlar üzərində nəzarətin kifayət qədər təsiredici olmaması daxildir. Bu problemlər həm məhkəmə qərarlarının icrasına, həm də ümumilikdə tədbirlərin məqsədlərinə nail olunmasına mənfi təsir göstərir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 28 iyul 2023-cü il tarixli qərarı tibbi xarakterli məcburi tədbirlərin tətbiqi sahəsində mövcud olan normativ və praktiki problemləri üzə çıxarması baxımından mühüm əhəmiyyət kəsb edir [4]. Məhkəmə qeyd etmişdir ki, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə təyin edilmiş tibbi xarakterli məcburi tədbirlərin yalnız cəza müddəti ilə məhdudlaşdırılması həmin tədbirlərin hüquqi təyinatına və məqsədinə ziddir. Qərarda vurğulanmışdır ki, cəza müddətinin başa çatması məcburi müalicənin avtomatik olaraq dayandırılması üçün əsas hesab edilə bilməz və müalicə zərurəti mövcud olduqda onun ixtisaslaşdırılmış tibb müəssisələrində davam etdirilməsi təmin edilməlidir.

Konstitusiya Məhkəməsinin bu hüquqi mövqeyi tibbi xarakterli məcburi tədbirlərin cəzalandırma vasitəsi deyil, müalicə və sosial

reabilitasiya məqsədi daşıyan xüsusi cinayət-hüquqi tədbir olduğunu bir daha təsdiq edir. Bununla yanaşı, qərarda ixtisaslaşdırılmış tibb müəssisələrində yer və resurs çatışmazlığı səbəbindən məhkəmə qərarlarının vaxtında icra edilməməsi problemi də göstərilmiş, belə halların tibbi xarakterli məcburi tədbirlərin effektivliyini azaltdığı qeyd edilmişdir.

Hesab edirik ki, Konstitusiya Məhkəməsinin sözügedən qərarı tibbi xarakterli məcburi tədbirlərin icrasında yaranan boşluqların aradan qaldırılması istiqamətində mühüm addım olsa da, ixtisaslaşdırılmış tibb müəssisələrinin maddi-texniki imkanlarının genişləndirilməsi, məcburi müalicə qərarlarının icrasına nəzarət mexanizmlərinin gücləndirilməsi və məhkəmə təcrübəsinin ümumiləşdirilməsi məqsədilə əlavə qanunvericilik və institusional tədbirlərin həyata keçirilməsi zəruridir.

Mövcud problemlərdən biri məhkəmə-psixiatrik ekspertizaların keçirilməsi ilə bağlıdır. Bəzi hallarda ekspertiza rəylərinin hazırlanması uzun müddət çəkir ki, bu da işlərin baxılmasını ləngidir. Buna görə ekspertiza institutunun maddi-texniki imkanlarının gücləndirilməsi və mütəxəssis hazırlığının artırılması məqsədəuyğun olardı. Digər mühüm məsələ tibbi xarakterli məcburi tədbirlərin tətbiqinin mütəmadi şəkildə yenidən qiymətləndirilməsidir. Təcrübədə bəzi şəxslərin uzun müddət eyni tədbir altında qalması müşahidə edilə bilər. Halbuki şəxsin vəziyyətində dəyişiklik olub-olmaması müəyyən intervallarla yoxlanılmalı və zərurət yarandıqda tədbirin növü dəyişdirilməlidir.

Bundan əlavə, ambulator müalicə imkanlarının genişləndirilməsi də məqsədəuyğun hesab edilə bilər. Çünki hər bir halda şəxsin stasionar müəssisədə saxlanılması zəruri olmur. Daha yüngül hallarda ambulator nəzarət həm şəxsin hüquqlarının qorunmasına, həm də dövlət resurslarından daha səmərəli istifadəyə imkan yaradır.

Azərbaycan Respublikasında tibbi xarakterli məcburi tədbirlərin tətbiqi sahəsində mövcud qanunvericilik beynəlxalq standartlara uyğun qurulmuşdur. Lakin praktiki problemlərin həlli üçün ekspertiza sisteminin təkmilləşdirilməsi, məhkəmə nəzarətinin gücləndirilməsi, insan hüquqlarının daha effektiv müdafiəsi və xarici təcrübədən istifadə istiqamətində tədbirlərin həyata keçirilməsi məqsədəuyğun görünür.

Nəticə

Tibbi xarakterli məcburi tədbirlərin tətbiqi yalnız tibbi göstəricilərlə deyil, eyni zamanda hüquqi meyarlarla da müəyyən edilir. Bu tədbirlərin tətbiqində qanunçuluq və insan hüquqlarının qorunması prinsiplərinə ciddi əməl olunmalıdır. Tibbi xarakterli məcburi tədbirlər həm hüquqi, həm də tibbi xüsusiyyətlərə malik olan xüsusi cinayət-hüquqi təsir vasitəsi kimi qiymətləndirilməlidir.

Müasir hüquqi dövlətdə tibbi xarakterli məcburi tədbirlərin tətbiqi zamanı insan hüquqlarının qorunması xüsusi əhəmiyyət daşıyır. Bu səbəbdən məhkəmələr tərəfindən belə qərarlar qəbul edilərkən şəxsin hüquqi müdafiəsi, tibbi ekspertiza rəylərinin obyektivliyi və bu tədbirin tətbiqinin zəruriliyi hərtərəfli araşdırılmalıdır. Yalnız bu halda tibbi xarakterli məcburi tədbirlər öz hüquqi və sosial məqsədlərinə uyğun şəkildə həyata keçirilə bilər.

Aparılan təhlil göstərir ki, tibbi xarakterli məcburi tədbirlər cinayət-hüquqi təsir tədbirləri sistemində xüsusi yer tutur və onların əsas məqsədi cəzalandırma deyil, psixi pozuntudan əziyyət çəkən şəxsin müalicəsi, reabilitasiyası və yeni ictimai təhlükəli əməllərin qarşısının alınmasıdır. Azərbaycan Respublikasının qanunvericiliyi bu sahədə həm ambulator müşahidə, həm də müxtəlif növ psixiatriya stasionarlarında məcburi müalicə formalarını nəzərdə tutaraq şəxsin psixi vəziyyətinə uyğun fərqli müdaxilə mexanizmləri müəyyən etmişdir.

Eyni zamanda, qanunvericiliyin təhlili göstərir ki, tibbi xarakterli məcburi tədbirlərin

tətbiqində əsas meyar şəxsin törətdiyi əməlin xarakteri deyil, onun psixi vəziyyəti və yaratdığı təhlükə dərəcəsidir. Bu yanaşma müasir insan hüquqları standartlarına uyğun olmaqla yanaşı, cəmiyyətin təhlükəsizliyi ilə psixi pozuntusu olan şəxslərin hüquqlarının qorunması arasında balansın təmin edilməsinə xidmət edir. Buna görə də belə tədbirlərin tətbiqi zamanı qanunilik, zərurilik və proporsionallıq prinsiplərinə ciddi riayət olunması xüsusi əhəmiyyət kəsb edir.

Müasir beynəlxalq təcrübə göstərir ki, psixi pozuntusu olan şəxslərə münasibətdə humanist yanaşma və fərdi qiymətləndirmə prinsipləri üstünlük təşkil etməlidir. Azərbaycan Respublikasının qanunvericiliyi ümumilikdə bu prinsiplərə uyğun olsa da, hüquq tətbiqi sahəsində müəyyən problemlər hələ də qalmaqdadır. Xüsusilə məhkəmə-psixiatrik ekspertizaların səmərəliliyinin artırılması, məhkəmə təcrübəsində vahid yanaşmanın formalaşdırılması və tədbirlərin tətbiqinə dair nəzarət mexanizmlərinin gücləndirilməsi zəruri görünür.

Nəticə etibarilə, müstəqil cinayət-hüquqi institut kimi tibbi xarakterli məcburi tədbirlər həm cəmiyyətin təhlükəsizliyinin qorunmasına, həm də psixi xəstəlikdən əziyyət çəkən şəxslərin hüquq və mənafelərinin müdafiəsinə xidmət edən vacib hüquqi vasitədir. Bu institutun daha da təkmilləşdirilməsi cinayət hüququnda humanizm, ədalət və qanunçuluq prinsiplərinin daha effektiv həyata keçirilməsinə töhfə verə bilər.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2026, 58 s.
2. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası / red. F.Y. Səməndərov; CM-ə edilmiş əlavə və dəyişiklikləri şərh edən B.C.Kərimov. Bakı: Hüquq Yayın Evi, 2023. I hissə, 872 s.
3. Azərbycan Respublikası Ali Məhkəməsi Plenumunun "Məhkəmələr tərəfindən tibbi xarakterli məcburi tədbirlərin tətbiqi təcrübəsi haqqında" Qərarı: [Elektron resurs] URL: https://e-qanun.az/framework/47292
4. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 17.1, 17-1.1, 17-1.5 və 17-1.6-cı maddələrinin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 93-1.1-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair" Qərarı: [Elektron resurs] URL: https://constcourt.gov.az/az/decision/1374
5. Azərbaycan Respublikasının "Psixiatriya yardımı haqqında" Qanunu: [Elektron resurs]URL: https://e-qanun.az/framework/2698
6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Qanun, 2026, 498 s.
7. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Bakı: Qanun, 2026, 536 s.
8. Ağayev, İ.B. Azərbycan Respublikasının Cinayət hüququ. Ümumi və Xüsusi Hissələr. Bakı: Nurlar, 2010. 832 s.
9. Bayramova, M.N. Cinayət məsuliyyəti və cəza. Dərs vəsaiti. Bakı: Mütərcim, 2026. 432 s.
10. Məmmədova, L.İ. Anlaqsızlıq və cinayət məsuliyyəti: Azərbaycan və xarici ölkələrin hüquq sistemlərində tibbi xarakterli məcburi tədbirlərin tətbiqi // Juridical Sciences and Education, 2025, № 81 s. 83-93.
11. Səməndərov, F.Y. Cinayət hüququ Ümumi hissə. Dərslik. Bakı: Hüquq Yayın evi, 2023. 724 s.
12. Yılmaz C. Kriminolojik Açıdan: Akıl Hastalığı ve Suç // Marmara Üniversitesi Hukuk Fakültesi Hukuk Araştırmaları Dergisi, Cilt 24, Sayı 2, 2018, s.743-765 Türk Ceza Kanunu: [Elektron kaynak] URL: https://www.mevzuat.gov.tr/mevzuat?MevzuatNo=5237&MevzuatTur=1&MevzuatTertip=5
13. Fabian J.M. Criminal responsibility and legal insanity. Forensic psychology: crime, justice, law, interventions. fourth edition. Wiley-Blackwell, 2023, 27 s.
14. Criminal Code of Germany: [Electonic resource] URL: https://www.gesetze-im-internet.de/englisch_stgb/englisch_stgb.html
15. Criminal Code of Poland: [Electonic resource] URL: https://www.un.org/depts/los/legislationandtreaties/pdffiles/pol_penal_code.pdf
16. Criminal Code of French: [Electonic resource] URL: https://www.equalrightstrust.org/ertdocumentbank/french_penal_code_33.pdf

Мехралиева Гумай Джахид гызы,
докторант кафедры права Национальной академии авиации

УГОЛОВНО-ПРАВОВЫЕ ОСНОВЫ ПРИМЕНЕНИЯ ПРИНУДИТЕЛЬНЫХ МЕР МЕДИЦИНСКОГО ХАРАКТЕРА

РЕЗЮМЕ

Современное уголовное право служит не только целям наказания лиц, совершивших преступления, но и направлено на предупреждение общественно опасных деяний, защиту прав человека и обеспечение социальной безопасности. В этом контексте особую значимость приобретает правовая реакция на общественно опасные деяния, совершенные лицами, страдающими психическими расстройствами. При оценке поведения таких лиц необходимо учитывать их психическое состояние, применяя наряду с мерами наказания правовые механизмы, ориентированные на лечение. По этой причине исследование правовой сущности принудительных мер медицинского характера и особенностей их применения имеет актуальное научное и практическое значение.

Humay Jahid Mehraliyeva,
Doctoral Student, Department of Law, National Aviation Academy

CRIMINAL LAW BASES FOR THE APPLICATION OF COMPULSORY MEDICAL MEASURES

SUMMARY

Modern criminal law serves not only to punish those who have committed crimes but also to prevent circumstances that create public danger, protect human rights, and ensure social safety. In this regard, the legal response to socially dangerous acts committed by persons suffering from mental disorders is of particular importance. When evaluating the behavior of such individuals, their mental state must be taken into account, and legal mechanisms focused on treatment should be applied alongside punitive measures. For this reason, researching the legal essence of compulsory medical measures and the specifics of their application holds significant scientific and practical importance.

Redaksiyaya daxilolma tarixi: 21.06.2026
Təkrar işlənməyə göndərilmə tarixi: 22.06.2026
Çapa qəbul olunma tarixi: 22.06.2026